**AZƏRBAYCAN RESPUBLİKASI**

---

*Əlyazması hüququnda*

# GÖYÇƏ AŞIQ MƏKTƏBİNİN İFAÇILIQ XÜSUSİYYƏTLƏRİ

**İxtisas** **5719.01- Folklorşünaslıq**

**Elm sahəsi** **Filologiya**

**İddiaçı** **Fəxrəddin Qəhrəman oğlu ATAYEV**

**Fəlsəfə doktoru elmi dərəcəsi almaq**
**üçün təqdim edilən dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI - 2021**

Dissertasiya Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Musiqi folkloru" şöbəsində yerinə yetirilmişdir.

**Elmi rəhbər:** Sənətşünaslıq üzrə elmlər doktoru, professor
**Nailə Rasim qızı Rəhimbəyli**

**Rəsmi opponentlər**: Filologiya elmləri doktoru
**İslam Hüseyn oğlu Sadıqov**
Filologiya elmləri doktoru, professor
**Nizami Qasım oğlu Xəlilov**
Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Nemət Yusif oğlu Qasımov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri: AMEA-nın həqiqi üzvü, filologiya elmləri doktoru, professor
**Muxtar Kazım oğlu İmanov**

Dissertasiya şurasının elmi katibi: Filologiya üzrə fəlsəfə doktoru, dosent
**Afaq Xürrəm qızı Ramazanova**

Elmi seminarın sədri: Filologiya elmləri doktoru, dosent
**Əfzələddin Dağbəyi oğlu Əsgərov**

# TƏDQİQATIN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Göyçə aşıq məktəbinin ifaçılıq xüsusiyyətlərində aktuallıq kəsb edən məsələlərdən biri, mühitdəki ifaçılıq ənənəsinin özünəməxsusluğunu, genetik spesifikasını, ayrı-ayrı dönəmlərdə ifadə etdiyi məzmunu aydınlaşdırmaqdır. Azərbaycan folklorşünaslığında aşıq mühitində yaşayıb-yaratmış ustad sənətkarlarının yaradıcılığının toplanması, nəşri və tədqiqi istiqamətində xeyli işlər görülmüş və lazımi qədər zəngin elmi baza yaradılmışdır. Aşıq yaradıcılığının tədqiqi sahəsində əldə edilən uğurların mühüm bir qismi məhz tipoloji kontekstdə aparılan nəzəri təhlillərlə bağlıdır. Çünki zəngin Borçalı, Ağbaba-Çıldır, Şirvan, Dərbənd, Gəncəbasar, Təbriz, Urmiya və s. aşıq mühitləri bir istiqamətdə mahiyyətin, genetik sistemin ümumi mənzərəsinin müəyyənləşməsi üçün müqayisəli araşdırmaları zəruri edir.

Aşıq yaradıcılığının zənginliyi timsalında ifaçılıq məsələləri ilə bağlı yazılmış monoqrafik araşdırmalar bəzi istisnalar nəzərə alınmazsa xeyli azdır. Ona görə də Göyçə aşıq mühitində ifaçılıq xüsusiyyətlərinin bir problem olaraq araşdırılması xüsusi olaraq aktualdır.

Göyçə aşıq məktəbinin ifaçılıq xüsusiyyətlərində aktuallığı üzə çıxardan məsələlərdən biri mühitə məxsus havacatların özünə-məxsusluqlarının, semantik məzmununun müəyyənləşməsidir. Bu xüsusiyyətlərin applikaturadan (musiqi alətində ifa edərkən barmaqların düzülüşünün növbələşməsinin qaydası) tutmuş arpecio (üç və daha artıq notun ardşcıl ifasıdır), akkord (üç və daha artıq notun eyni vaxta ifasıdır) quruluşu məsələlərinə qədər bir sistem altında izlənməsidir. Burada pərdə kökləri, məsələn, ayaq pərdə, ayaq pərdə kökü, ayaq pərdə zili, eləcə də baş pərdə, baş pərdə kökü, baş pərdə zili məsələləri regiona məxsus saz havalarında, ayrı-ayrı sənətkarların ifaçılığında hansı səviyyədə özünü göstərməsi bütünlükdə sənətin məzmununu aydınlaşdırır.

Ənənədə qəlibləşmənin hansı istiqamətə getməsi haqqında dolğun təsəvvür yaradır.

Aşıq yaradıcılığının spesifikasında araşdırılmalı problemlərdən biri də Göyçə aşıq mühiti ilə digər aşıq mühitlərinin ümumi stixiyasının müəyyənləşməsidir. Onların əlbəttə mühit və özünəməxsusluq baxımından dinamik məzmunda müəyyən fərqlilik məqamları da çoxdur. Ənənədə, heç şübhəsiz ki, bu təbiidir. Çünki mühitin gerçəkləşən keyfiyyət göstəricisi təsəvvürünü formalaşdırır. və regionun musiqi landşaftında diatonik (ardıcıl surətdə) mənzərəni aydınlaşdırır.

Göyçə aşıq məktəbinin ifaçılıq xüsusiyyətləri ənənə baxımından etno-kosmik təcrübənin, üslubların rəngarəngliyinin, eləcə də musiqi ünsiyyətinin bütün parametrləri üçün geniş imkanlı olmasıdır. Mətn - Musiqi assosiativliyinin (qavrama), şərtləndirmənin hansı səviyyədə müşahidə olunmasının təzahür tiplərinin aydınlaşması baxımından problemin öyrənilməsi mühüm aktuallıq kəsb edir. Bütün bunların bir müstəvidə, mühit kontekstində təhlili digər köklü araşdırmalar üçün əsaslı baza funksiyasını da yerinə yetirə bilər.

Göyçə aşıq məktəbi Azərbaycan aşıq sənətinin klassik sənət nümunələrinin qorunmasında və yeni ifa mədəniyyətinin formalaşmasında çox böyük əhəmiyyət kəsb edir. “Göyçəgülü”, “Göyçə qaragözü”, “Göyçə gözəlləməsi”, “Köhnə Göyçə”, “Heydəri”, “Nəcəfi” kimi havalar Göyçə aşıq məktəbinin arxitektonik (sənət əsərinin quruluşu) sistemini, spesifiklik (özünəməxsus) məzmununu aydınlaşdırır.

Mühitdəki bədii-estetik məzmunu janr paradiqmasından mətnin müstəsna məzmun zənginliyinə və musiqi, havacat assosiativliyinə qədər bir bütövü özündə ehtiva edir. Burada aşıq sənətində xüsusi istedad tələb edən bağlama, qıfılbənd, müəmma və deyişmələr də bir forma olaraq özünə yer alır. Bütün bunlar mühit səviyyəsində ifaçılıq ənənələrinin problem olaraq təhlilini aktuallaşdırır.

Göyçə aşıq mühiti müxtəlif problemlər müstəvisində folklorşünasların, aşıq yaradıcılığı tədqiqatçılarının, musiqişünasların, etnoqrafların araşdırma mövzusu olmuşdur. XIX əsrin ortalarından Y.H.Polonski ilə başlayan bu maraq sonrakı mərhələlərdə də davam etmişdir. "Kavkaz", SMOMPK, "Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyəti", "Dan ulduzu", "Yeni kənd", "Ədəbiyyat" və s. kimi orqanların bu sahədə atdığı ilk addımlar ziyalı mühitinin daha gərəkli və həm də sistemli fəaliyyəti üçün əsas olmuşdur. M.Şəmsicədid, H.Zeynallı, V.M.Belyayev, H.Əlizadə, V.Xuluflu, H.Araslı, F.Qasımzadə, M.İbrahimov, S.Vurğun, M.Hüseyn, M.Təhmasib, O.Sarıvəlli, Ə.Axundov, H.Arif, M.Həkimov, Q.Namazov, İ.Abbaslı, İ.Ələsgər, M.Qasımlı, E.Məmmədli, S.Paşayev, H.İsmayılov, Z.Məhərrəmov, F.Bayat, M.Allahmanlı, B.Qurbanov, T.Göyçəli, T.İsabalı qızı, A.Məmmədova, N.Qasımov, A.Məmmədov kimi filoloqlar və Ə.Eldarova, T.Məmmədov, A.O.Kərimli, İ.Köçərli, R.İmrani, K.Dadaşzadə, N.Rəhimbəyli, İ.İmamverdiyev, N.Bağırov, H.Kərimov və başqa musiqişünas alimlər müxtəlif mövzularda apardıqları araşdırmaları ilə mühitin bədii-estetik mənzərəsi haqqında fundamental elmi baza formalaşdırmışlar[1].

[1] Hacıbəyov, Ü. Seçilmiş əsərləri / Ü.Hacıbəyov. – Bakı: Yazıçı, – 1985. – 653 s.; Zülfüqar bəy Hacıbəyov və Azərbaycan musiqi folkloru / tərtibçilər R.Xəlilov, İ.Köçərli. – Bakı: .Xəzər Universiteti nəşriyyatı, – 2019. – 127s.; Эльдарова Э. Некоторые вопросы ашугского искусства // Искусство Азербайджана / под редакцией У.Гаджибекова. – Баку: Изд. АН.Азербайджанской ССР, – 1949. – 113 с.; Эльдарова, А. Некоторые вопросы музыкального творчества ашугов // – Баку: Азербайджанская музыка, – 1961. – 64 с.; Qurbanov, B. Musiqi-mətn-ifaçılıq baxımından aşıq sənəti / B.Qurbanov. – Bakı: Elm və təhsil, – 2013. – 320 s.; Qurbanov, B. Koroğlu mövzusu və musiqi // – Bakı: Kredo, – 2014. – 9-16 avqust, – № 32-33; Kərimli, A. Çıldır aşıq məktəbi haqqında bilgilər // – Bakı: Azərbaycan musiqisi, –1994. – s.128-132; Kərimli, A. Göyçə aşıq məktəbi // – Bakı: Musiqi dünyası, – 2000. – № 1(2), – s. 66-72. ; Kərimli, A. Tovuz aşıq məktəbinin saz havaları toplusu // – Bakı: Azərbaycan musiqisi, – 1994. – s. 69-70; Məmmədov, T. Azərbaycan xalq-professional musiqisi: aşıq sənəti / T.Məmmədov. – Bakı: Şur,

Göyçə aşıq havalarının səs yazıları sahəsində görülən işlər də mövzunun öyrənilməsində bir xətdir. 1914-cü ildən başlayan bu işlər həmişə çoxalan istiqamətdə getmişdir. Almaniyanın "Sport-rekord" şirkəti ilə bağlı görülən işlər buna nümunədir. Sonrakı mərhələdə Fransada, Kiyevdə bu işlər davam etdirilmişdir. Azərbaycan Dövlət Konservatoriyası nəzdində yaradılmış Elmi Tədqiqat Musiqi Kabinəsi (1931-1945) əhəmiyyətli işlərə imza atmışdır. Qazax, Dilcan, Basarkeçər, Borçalıda C.Hacıyevin, Z.Bağırovun, M.İsmayılovun gördüyü işlər bu gün də elmi-tarixi əhəmiyyətini saxlayır. Aşıq havalarının nota alınması A.Xodzkonun rəhbərliyi ilə (1842) həyata keçirilmişdir. Sonralar Ü.Hacıbəyli və Bülbülün rəhbərliyi altında Aşıq Əsəd Rzayevdən, Aşıq Mirzə Bayramovdan və başqalarının repertuarından yazıya alınan saz havaları Qərb bölgəsinin, Göyçə aşıq mühitinin ifaçılıq xüsusiyyətlərini aydınlaşdırmaq üçün ilkin mənbələrdir. Bəstəkarlardan Q.Qarayevin, C.Hacıyevin, S.Rüstəmovun, Niyazinin, F.Əmirovun, T.Quliyevin, Z.Bağırovun, H.Nemətovun aşıq havalarının nota köçürülməsi sahəsində xidmətləri vardır. S.Rüstəmovun "Azərbaycan aşıq mahnıları" (1938) dörd cildlik məcmuəsi vardır. Etnomusiqişünaslardan T.Məmmədovun "Azərbaycan aşıqlarının ənənəvi saz havaları" (1988), İ.İmamverdiyevin "Azərbaycanın 20 saz havası" (2005), "Azərbaycanın 40 saz havası" (2006), "Aşıq Mikayıl Azaflının saz havaları" (2008) və s. aşıq sənətinin ifaçılıq xüsusiyyətlərini aydınlaşdırmaq anlamında atılan gərəkli addımlardır. N.Bağırovun, A.O.Kərimlinin, N.Rəhimbəylinin,

---

– 2003. – 95 s.; Məmmədov, T. Azərbaycan aşıq yaradıcılığı / T.Məmmədov. – Bakı: Apostrof, – 2011. – 648 s. ; Köçərli, İ. Aşıq sənəti: musiqili poetik janrlar / İ.Köçərli. – Bakı: AMEA Memarlıq və İncəsənət İnstitutu, –2010. –218 s. ; İmamverdiyev, İ. Azərbaycan aşıq sənətinin səciyyəvi xüsusiyyətləri (Qərb bölgəsi üzrə) / İ.İmamverdiyev. – Bakı: Şirvannəşr, – 2004. – 137 s. ; İmamverdiyev, İ. Saz havaları antologiyası. Dədə Şəmşir / İ.İmamverdiyev. – Bakı: Elm və təhsil, – 2013. – 1112 s.; Rəhimbəyli N. Azərbaycan dastanlarının melo-poetikası / N.Rəhimbəyli. – Bakı: Şərq-Qərb, – 2009. – 535 s. və s.

K.Dadaşzadənin və digər musiqişünasların gördükləri işlər də bura daxildir. AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun "Xalq musiqisinin tarixi və nəzəriyyəsi" şöbəsinin hazırladığı "Azərbaycan xalq musiqisinin antologiyası" bir mənbə kimi işin öyrənilməsində istifadə edilmişdir. Qeyd etdiyimiz mənbələr işin öyrənilmə səviyyəsini müəyyənləşdirən məsələlərdir.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyektini Göyçə aşıq mühitinin zəngin mətn bazası təşkil edir. Məlum olduğu kimi, bu mühit öz tarixi mündəricəsi, sənət şəcərəsi etibarı ilə Dədə Qorquddan bu yana olan böyük zaman müddətinə bağlanır. Tarix və şəcərə baxımından əsaslı faktura ilə səciyyələnir. Tədqiqatın predmetini isə bu zənginlikdən heç də geri qalmayan, əksinə bunu daha çox tamamlayan mühitin ifaçılıq xüsusiyyətləri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın əsas məqsədi Göyçə aşıq məktəbinin ifa xüsusiyyətlərinin, ifaçılıq ənənələrinin spesifik cəhətlərini üzə çıxarmaqdır. Tədqiqat mövzusunda qaldırılan elmi problemlərin həlli üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

- Göyçə aşıq mühitinin təşəkkülü və inkişaf mərhələlərinin özünəməxsus xüsusiyyətlərinin aydınlaşdırılması;
- Aşıq ifaçılıq ənənəsinin formalaşmasında ustad - şəyird ənənələrinin və ifaçı sənətkarların rolu və əhəmiyyətinin üzə çıxarılması;
- Göyçə aşıq məktəbinin ifa xüsusiyyətlərinin spesifikasını (məsələn, auqmentasiyasını – hecalarda səslənmə müddətinin artması) araşdırmaq və onların nəzəri təhlilini vermək;
- Çağdaş Göyçə aşıqlarının ifa ənənələrinin tipoloji müstəvidə təhlilini aparılması;
- Göyçə aşıq məktəbinin ifaçılıq xüsusiyyətlərinin digər mühitlərlə müqayisədə sənət və özünəməxsusluq stixiyasının aydınlaşdırılması;

- Bütün olanlar kontekstində Göyçə aşıq mühitinin mövcud fakturasından çıxış etməklə ümum Azərbaycan miqyasındayerini və rolunu aşkarlamaq və s.

**Tədqiqat metodları**. Mövzunun tədqiqində tarixi-müqayisəli, nəzəri-tipoloji metodların ortaya qoyduğu ümumi prinsiplərdən istifadə olunmuşdur. Çünki Göyçə aşıq mühitinin ifaçılıq xüsusiyyətləri geniş miqyaslı mədəniyyət hadisəsi kimi müxtəlif istiqamətli yanaşmaları zəruri edir. Struktural metodun müəyyənləşdirdiyi yanaşmalar da bir tərəf kimi burada müəyyən məqamlarda özünə yer almışdır. Folklorşünaslığın, aşıq yaradıcılığı tədqiqatçılarının, etno-musiqişünasların, etnoqrafların elmi-nəzəri təhlilləri bir qaynaq kimi əsas götürülmüşdür.

**Müdafiəyə çıxarılan əsas müddəalar**:

1. Göyçə aşıq mühiti Azərbaycan aşıq sənətinin klassik sənət nümunələrinin qorunmasında və onun yeni ifa mədəniyyətinin formalaşmasında çox böyük əhəmiyyət kəsb edir.

2. Göyçə aşıq məktəbinin ifaçılıq xüsusiyyətləri ənənə baxımından etno-kosmik təcrübənin, üslubların rəngarəngliyinin, eləcə də musiqi ünsiyyətinin bütün parametrləri üçün geniş imkanlara malikdir.

3. Musiqi / mətn / ifaçılıq baxımından çağdaş Göyçə mühiti Ağ Aşıqdan, Aşıq Alıdan, Aşıq Ələsgərdən qəlibləşmiş forma və üsullara, yaradıcılıq və ifaçılıq ənənəsinə sədaqət göstərir. Bu mühitin onurğa sütunu etnosun milli yaddaşının müəyyənləşdirdiyi prinsipləri ilə nizamlanır.

4. Göyçə aşıq məktəbinin səciyyəvi cəhətlərindən biri regional spesifikanın, lokal səciyyənin invariant məzmununun qorunub saxlanmasına üstünlük verilməsidir. Aşıq və ümumiyyətlə folklor sənətinə dair informasiyanın mühafizəkar şəkildə, ilkin mənbələrə oxşar olaraq qorunub saxlanılması, ustad-şəyird münasibətləri, aşıq məclisləri, aşıq dəstələri, dastan söyləmə tərzi, məclis aparma ənənələri, bölgə üçün xas aşıq repertuarı, aşıq havacatı və şeir mətnlərinin münasibəti, bir sözlə

göyçəli “ruhu” haqda müəyyən mülahizələr müdafiəyə şıxarılan əsas müddaalardır.

**Tədqiqatın elmi yeniliyi**. Göyçə aşıq mühitinin ifaçılıq xüsusiyyətlərinin tədqiqi bir sıra ciddi elmi-nəzəri qənaət və nəticələrin əldə olunmasına gətirib çıxarmışdır:

- Mühitin ifaçılıq ənənəsinin özünəməxsusluğunu şərtləndirən məsələlər bir bütöv olaraq aydınlaşdırılmışdır;
- Göyçə aşıq mühitinin genetikası, tarixin ayrı-ayrı dönəmlərindəki mənzərəsi haqqında dolğun təsəvvür formalaşdırılmışdır;
- Mühitə məxsus havaların poetik-semantik strukturu, texnoloji sisteminin ümumi məzmunu aşkarlanmışdır;
- Gəncəbasar, Borçalı, Ağbaba-Çıldır, Dərələyəz, Şirvan, Təbriz, Urmiya aşıq mühitləri ilə Göyçə aşıq ifaçılıq ənənəsinin tipoloji təhlili aparılmış və onların yaxınlıq, fərqlilik məqamları müəyyənləşdirilmişdir;
- Mühitdə yaranan havacatların mühitin etnik-mədəni potensialını hansı səviyyədə əks etdirə bilmək imkanları açıqlanmışdır;
- Mənəvi-kulturoloji, estetik potensialın ən möhtəşəm hadisəsi kimi Söz və Musiqi (Şeir və Havacat) bir sistem altında təhlilə cəlb edilmişdir;
- Ustad-şəyird ənənəsində arxaik yaddaşın hansı səviyyədə qorunuşu, sənət şəcərəsinin hansı amillərlə təmsil olunması dəqiqləşdirilmişdir;
- Göyçə aşıq musiqisində forma genişləndirmə üsullarından istifadə zamanı musiqi və sözün qarşılıqlı vəhdəti məsələlərinə nəzər yetirilmişdir;
- Göyçə aşıq mühitinin ifaçılıq ənənələrini Azərbaycan aşıq sənəti kontekstində yeri və mövqeyini aydınlaşdırılmışdır.

**Tədqiqatın nəzəri və praktik əhəmiyyəti.** Dissertasiyanın yazılışında əldə edilən nəticə və elmi mühakimələrdən aşıq yaradıcılığı ilə məşğul olan tədqiqatçılar, folklorşünaslar və musiqişünaslar, saz ifaçıları praktiki və nəzəri material kimi

istifadə edə bilərlər. Tədqiqatın praktiki əhəmiyyəti eyni zamanda ondan ibarətdir ki, əldə edilən nəticələrdən aşıq sənətinin, xüsusən də onun regional xüsusiyyətlərinin təbliğində lektorlar, gənc tədqiqatçılar istifadə edərək yararlana bilərlər. Materiallardan Ali və Orta ixtisas məktəblərində aşıq yaradıcılığı, saz ifaçılığı kurslarında əyani olaraq dərs vəsaiti kimi istifadə oluna bilər.

**Tədqiqatın aprobasıyası və tətbiqi.** Araşdırmanın məzmunu Azərbaycanın və müxtəlif xarici ölkələrin elmi toplu və jurnallarında dərc olunmuş məqalə və tezisdə, konfranslarda oxunmuş məruzələrdə əksini tapmışdır.

Tədqiqatın nəticələrindən ali təhsil müəssisələrində əlavə vəsait kimi də istifadə oluna bilər.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Tədqiqat işi AMEA Folklor İnstitutunun "Musiqi folkloru" şöbəsində hazırlanmışdır. Dissertasiyanın mövzusu AMEA Folklor İnstitutunun Elmi Şurasının 29 dekabr 2011-ci il tarixli iclasında (protokol №8) təsdiq olunmuşdur. Mövzu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının Folklorşünaslıq problemləri üzrə Elmi Şurasının 07 mart 2012-ci il tarixli iclasında (protokol №1) təsdiq olunmuşdur.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi giriş (13539 işarə), I fəsil (137520 işarə), II fəsil (98063 işarə), nəticə (9129 işarə) və ədəbiyyat sıyahısından ibarət olmaqla, ümumi həcmi (258251 işarə) 180 səhifədən ibarətdir.

**İşin strukturu:** Dissertasiya giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

**"Giriş"**də mövzunun aktuallığı əsaslandırılır, öyrənilmə dərəcəsi göstərilir, məqsəd və vəzifələri, tədqiqat metodları, müda-

fiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, nəzəri və praktik əhəmiyyəti müəyyənləşdirilir, aprobasiya və strukturundan bəhs olunur.

Dissertasiyanın birinci fəsli **"Göyçə aşıq mühitinin formalaşması və təşəkkülü"** adlanır və problem iki paraqrafda həllini tapır. *"**Qərb aşıq mühitinin sənət qaynaqları və tarixi səciyyəsi**"* adlanan birinci paraqrafında vurğulanır ki, genetik məzmunu və tarixi səciyyəsi ilə etnosun əski təsəvvürlərinə bağlanan və onun ruhani dünyasını ifadəyə köklənən aşıq sənəti şamandan, ozandan, baxşıdan, akından, varsaqdan bu yana zəngin bir mədəniyyət, sənət şəcərəsi ilə təmsil olunur[2]. Etnosun fiziki-mənəvi təcrübəsinin modelləşməsi ilə səciyyələnən bu sənət orta əsrlərin bütün ağırlıqlarını el anası olaraq öz üzərində hiss etmiş və onun sənət məsuliyyətini yüksək səviyyədə yerinə yetirmişdir. Aşıq yaradıcılığının müasir zəngin fakturası, ustad sənətkarların yaradıcılığından gəlib çatan nümunələr, dastan ənənələri, ifaçılıqda müşahidə olunan texnoloji sistemin dinamikası bunun bariz göstəricisi kimi əsaslı faktaloji məzmunu təsdiqləyir. Mövcud mühitlərin özünəməxsusluq və ənənə spektrləri Söz və Havacat müstəvisində bir qaynaq olaraq bu prinsipə nizamlanır.

Mühitlərin bir-birinə bənzərliyi və özünəməxsus əlamətləri regionallıq kontekstində zənginləşməni müəyyənləşdirir. Məsələn, Borçalı aşıq mühiti ilə Ağbaba aşıq mühiti el sənətkarlarının ifaçılığında tək saz ifaçılığı əsas rol oynayır. Aşıq mühitlərinin özünəməxsusluğu müəyyən tərəfləri ilə anqemitonikasında (yarımtonu olmayan səs sırası), artikulyasiya (aydın tələffüz) sistemində də təzahür edir.

Dərələyəz aşıq mühiti də Göyçə ilə həmsərhəd olduğundan hər iki mühitin el sənətkarları bir-biri ilə yaxın təmasda olmuş, deyişmiş, məclislər aparmış, səmimi sənət əlaqələrində olmuşlar. "Kitabi-Dədə Qorqud" boylarında adı keçən Göyçə Azərbaycan

---

[2] Atayev F. Göyçə aşıq mühitinin formalaşması (XVI-XVII əsrlər) // – Bakı: Dədə Qorqud, – 2012. №4, – s. 81-87

türklüyünün ən saf bölgələrindən biri olduğu üçün orada saz-söz sənəti həmişə güzəranın ayrılmaz tərkib hissəsi olmuş və ulusun mənəvi yaşam sistemində aparıcı mövqeyə yiyələnmişdir. Bu qədim türk yurdu öz misilsiz koloritini, bulaq kimi qaynayan obrazlı danışıq tərzini milli ruhun ən dərin qatlarından şirə çəkərək yaratmışdır”[3].

Qopuzun tarixi-mədəni diferensiasiyası kontekstində aparılan təhlillər regionun ümumi mədəni sferasında saza gələn yolun, Dədə Qorquddan üzü bəri olanların məzmununu aydınlaşdırır. Əski poetik sistem bir mədəniyyət kompleksi olaraq ustad sənətkarların Ağ Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin və s. bu sıradan olan digərlərinin timsalında bütövləşir. Məsələn, Dərələyəzlı Aşıq Cəlil həm ustad aşıq, həm yaradıcı sənətkar kimi maraqlı informasiyalarla faktlaşır. Burada yaranan Cəlil ocağı Aşıq Ələsgər ocağı kimi zəngin olmasa da, mühitdə qaynarlıq və vüsət yarada bilmişdi. Sonralar erməni təcavüzündən dolayı Aşıq Cəlilin Naxçıvana pənah gətirməsi Naxçıvan aşıq mühitində də canlanma yaratdı. Mühitdəki ifaçılıq saz-balaban qoşalığına (duetinə) üstünlük vermə ilə səciyyələndi və bir ənənə kimi qəlibləşdi.

Qərb aşıq mühitlərinin ifaçılıq fasiləsizliyində İrəvan aşıq mühiti barəsində bilgi və məlumatlar dastan və rəvayət, havacat informasiyasında daşlaşmışdır. Məsələn, “İrəvan çuxuru”, “İrəvan gözəlləməsi”) və bəzi ustad sənətkarların (Dədə Qürbət, Dədə Güclü, Dədə Heykəl) haqqında qeydlərdən ibarətdir. Dastançılıqda “Aşıq Qərib”, “Əsli və Kərəm”, “Aşıq Alının Türkiyə səfəri” və s. dastan nümunələrində olan epizodla bütövləşir.

Qədim türk-oğuz yurdu olan İrəvanın zəngin onomastik sistemi bu mədəniyyət ocağının zənginlik göstəricisi olaraq sistemli təhlilləri aktuallaşdırır. Vaxtilə buraya gələn səyyahların, rəssamların, avropalıların, rus alimlərinin əsərlərində,

---

[3]Qasımlı M. Ozan-aşıq sənəti / M.Qasımlı. − Bakı: Uğur, − 2011. − s. 178

xatirələrində öz əksini tapmış informasiyalar da mühit haqqında dolğun təsəvvür formalaşdırır. Məsələn, Ozan – 1728-ci ildə İrəvan əyalətinin Qırxbulaq nahiyəsində, Ozanlı Qarni nahiyəsində kənd adı[4]və s. Gördüyünüz kimi, ozan adı ilə İrəvan əyalətində yer-yurd adlarının çox olması bu regionda ozanlığın sənət şəcərəsinin aparıcılığını təsdiqləyən faktdır. "Oğuz", "Ozan" sözləri bu regionun mədəni yaddaşında sənət aparıcılığının göstəricisidir. İrəvan adı ilə bağlanan saz havaları ("İrəvan gözəlləməsi" "İrəvan çuxuru"), el sənətkarları (Dədə Heykəl, Dədə Güclü, Yetim Tapdıq, Qərib Rza, Aşıq Qənbər, Aşıq Mahmud) bir daha bu ərazidə aşıq mühitinin zəngin ənənələrinin mövcudluğunu aşkarlayır.

Qərb bölgəsinin ifaçılıq xüsusiyyətlərinin özünəməxsusluğunda bir xətt İrəvan / Ağbaba / Çıldır müstəvisində etnosun zəngin sənət ənənəsinə bağlanır. Məlum olduğu kimi, "Ağbaba ərazisi qədim zamanlardan saz-söz diyarı kimi tanınıb, Çıldırla bineyi-qədimdən bir ərazidə, bir yerdə olduğundan burada el arasına yayılan aşıq havaları Çıldır aşıq havaları kimi tanınmışdır. Bu saz havaları Azərbaycanın ayrı-ayrı bölgələrindəki saz havalarından seçilir. Bir az Göyçə, bir az da Borçalı saz havalarına oxşasa da, daha çox Urmiya aşıq havalarına yaxındı. Çıldır havaları içərisində sufi havalar və nanayılar da var. "Çıldır zinharısı", "Çıldır çuxurobası", "Sarı yaylıq", "Çalpapaq", "Köşəbaşı", "Urfani", "Tərcümani", "Şörəyeli", "Ağbabayı", "Ağbaba gözəlləməsi", "Çıldırı", "Aşıroğlu", "Daşdanoğlu", "Atüstü", "Süründürmə", "Qəza nişanı", "Dərbədəri", "Diyarbəkiri", "Qurdoğlu", "Dəli hicranı" kimi Çıldır havaları məlumdur"[5]. Buraya 22 sufi havasını ("Ağam hey", "Göy atlı" və s.) və üç nanay havasını ("Gəlin nanayı", "Ota nanayı", "Aşıq

---

[4] İrəvan əyalətinin icmal dəftəri / tərt.ed. Z.Bünyadov, H.Məmmədov Qaramanlı. − Bakı: Elm, − 1996. − s.52-101

[5]Azərbaycan folkloru antologiyası. Ağbaba folkloru / topl.tərt.ed. H.İsmayılov, T.Qurbanov. – Bakı: Səda, 2003. − VIII c. − s.16

Tüccarın nanayı") əlavə etdikdə məsələnin mahiyyəti böyüyür və onun fundamental bir mətn bazası formalaşır[6].

Qərb aşıq mühitlərinin sənət qaynaqlarının zənginliyində Gəncəbasar aşıq mühiti daha arxaik yaddaşla, arxetiplərin qorunuşu ilə səciyyələnir. Bir bütöv olaraq mühitin yaradıcılıq ənənəsinin informativliyi, etnik işarəvi və modelləşdirici sistemin məzmunu mahiyyətin dərki üçün daha çox material verir. Bu mühitin Goranboy, Daşkəsən, Göygöl, Gəncə, Şəmkir, Gədəbəy və Qazax qolları da özünəməxsus inkişaf xüsusiyyətləri ilə təmsil olunmaqla yeni ifa, xal, hava əlavələri sənətin spesifikasını zənginləşdirmişdir. Məsələn, artikulyasiya sistemindəki dinamika ("Koroğlu" havalarındakı yüksək tessiturada (oxuma) səslənən zəngulələr, tremolo, ayaq, döymə və s.) daha genişmahiyyətli olmanın göstəricisidir.

Mühit aşıqlıq, sənət ifaçılığının fasiləsizliyi baxımından əsaslı nailiyyətlərlə səciyyələnmişdir "Dilqəmi", "Aşıq Söyünü", "Zülfüqar dübeyti", "Azaflı dübeyti", "Vaqifi", "Qazax səbzəsi", "İncəgülü", "Əkbər qaragözü", "Səlminazı" və başqa neçə-neçə saz havası bu bölgəyə məxsus sənətkarların barmaqlarından yadigardır[7]**.** Beləliklə, Qərb aşıq mühitlərinin zəngin sənət şəcərəsi fundamental bazaya, etnosun tarixin dərinliklərindən gələn mətn və düşüncə modellərinə əsaslanmaqla ciddi zənginliklə xarakterizə olunur.

***"Göyçə aşıq məktəbinin təşəkkülü və inkişafı"*** adlanan və dörd bölmədən ibarət ikinci paraqrafda xüsusi olaraq vurğulanır ki, Göyçə türkin zəngin mədəniyyət ocaqlarından olmaqla etnosun sənət, yaradıcılıq stixiyyasını, yaddaş ponoramını daha çöx özündə ehtiva edən bir kutsallıqla səciyyələnir. "Təkcə ozan Qorqudun qopuz çaldığı və Qoç Koroğlunun at oynatdığı mağar

---

[6] Atayev F. Göyçədə aşıq ifaçılıq sənətinin formalaşması (ustad şəyird ənənələri) // – Bakı: Sivilizasiya, 2014. № 10, – s.43-48

[7] Həkimov M. Azərbaycan aşıq ədəbiyyatı / M.Həkimov. – Bakı: Yazıçı, – 1983. – s. 219-220

və meydan bütünlükdə türkün coğrafiyası boydadır. Lakin bu coğrafiya da qopuzun və sazın səsini, cənginin və rəcəzin sədasını yayan seysmik mərkəz, enerji nüvəsi dəqiq mənzildən, konkret ünvandan məhrum deyildir. "Azərbaycan folkloru" adlanan mənəvi kosmosu zirvədə saxlayan təməl sütun Qafqazda-Göyçədir"[8]. Tarixi folklor bölgələrinin hansı məhrumiyyətləri yaşamasına baxmayaraq, öz genetik sisteminin, mənəvi yaddaş stixiyyasının bütün çalarları ilə qorunub saxlanmışdır.

Göyçə aşıq məktəbi həm saz ifaçılığı, vokal-instrumental ifa tərzi, həm də aşıq üslubunda olan şeir yaradıcılığı ilə sıx bağlıdır. El şairləri kimi tanınan sənət adamları və aşıq adlanan sənətkarlar region folklorunun zənginləşməsində xüsusi rol oynamışlar. Saz ifaçılığı ilə məşğul olan aşıqların həm ifa mədəniyyəti, həm də vokal səs imkanları həmişə geniş olmuşdur. Vokal ifada yerli dialektin ifadə formaları əsasən zəngulələrin, musiqi cümlələrinin sonunda daha çox özünü göstərir. "Qadan alem, ağrın alem" və s. bu kimi ifadələrdə "alem" sözünün son "e" fonetik səsi açıq səs olduğu üçün musiqi cümləsinin yuxarı intonasiyalarında bitməsini şərtləndirmişdir[9].

Göyçə aşıq mühitinin səciyyəvi cəhətlərindən biri regional spesifikanın, lokal səciyyənin invariant məzmununun qorunub saxlanmasına üstünlük verilməsidir. Aşıq və ümumiyyətlə folklor sənətinə dair informasiyanın mühafizəkar şəkildə, ilkin mənbələrə oxşar olaraq qorunub saxlanılması, ustad-şəyird münasibətləri aşıq məclisləri, aşıq dəstələri, dastan söyləmə tərzi, məclis aparma ənənələri, bölgə üçün xas aşıq repertuarı, aşıq havacatı və şeir mətnlərinin münasibəti, bir sözlə Göyçəli "ruhu" haqda müəyyən mülahizələr yürütmək imkanı yaradır.

---

[8] Qarayev Y. Göyçəyə qayıdan yol folklordan keçir // Azərbaycan folkloru antologiyası. − III kitab (Göyçə folkloru). − Bakı: Səda, 2000. − s. 3

[9] Atayev F. Göyçə aşıq mühitində ifaçılıq məsələlərinə bir nəzər // − Bakı: Sivilizasiya, − 2017. cild 6, № 3. − s. 132-135

Xalq yaradıcılığının yerli ənənəsi ifa üslubunun və ifa mədəniyyətinin formalaşdırdığı xarakterik cəhətləri inkişaf etdirərək onun yeni, daha peşəkar səviyyədə intişarını təmin edir. Yerli ənənənin musiqi intonasiyalarını formalaşdıran cəhətlərdən biri də yerli dialektdir. Bu haqda musiqişünas V.M.Şurov göstərir ki, "yerli ləhcənin ifadə xüsusiyyətlərinə diqqət yetirmək vacibdir. Bu, ilk növbədə, sözün ifadə olunması zamanı bir sıra mühüm ifa məziyyətlərinin, detallarının müəyyən edilməsinə kömək edir"[10].

Göyçə aşıq məktəbinin misilsiz nümayəndələri olan Dərdli Nəsib, Qul Mahmud, Simpirli Sevgili, Ağ Aşıq sənət idealları mühitin ifaşılıq ənənələrini zənginləşdirmişlər. Onların yaradıcılığından günümüzə gəlib çatan örnəklər bədii düşüncənin dinamik mənzərəsini, ruhun ənənə və özünəməxsusluq kontekstində morfologiyasını müəyyənləşdirir. Artıq bu sənətkarların haqqında verilən ötəri bilgilərlə onların həyat və yaradıcılığının ümumi mənzərəsinin yaradılması ən vacib olandır.

Qul Mahmud XVII yüzilliyin ortalarında Göyçənin qədim Şımpır elində doğulmuşdur[11]. Günümüzə gəlib çatan şeirləri ("Görmüşəm" gəraylısını, "Gəlmişəm", "Yetir", "Mənim", "Ağlaram", "Tapmadım", "Qovuşdu", "Gecələr" qoşmaları) onun istedadının göstəricisidir. "Qul Mahmud" dastanı bu iki böyük sənətkara (Şımpırlı Sevgili və Qul Mahmud) münasibətin ifadəsidir. Bütün bunlar XVIII əsrə qədərki mənzərənin hadisəsi olaraq mühitin ümumi axarını müəyyənləşdirir. XIX əsr Göyçə aşıq mühiti Azərbaycan aşıq poeziyasına Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər, Alçalı Məhərrəm, Aşıq Musa kimi məşhur sənətkarlar, Şişqayalı Şair Aydın, Şair Əziz, Hacı Əliş Ağa, Mirzə Bəylər, Şair

---

[10] Щуров В.М. О региональных традициях в русском народном музыкальном творчестве // Музыкальная фольклористика / Редактор-составитель А.А.Банина). − вып. 3. − Москва: Советский композитор, 1986. − с.27

[11] İsmayılov H. Göyçə aşıqları və el şairləri / H.İsmayılov. − I.cild. − Bakı: Səda, − 2006. − s. 44

Kazım, Usta Abdulla və başqaları kimi qüdrətli el şairləri bəxş etmişdir.

Göyçə aşıq mühitində Aşıq Ələsgərə qədər olan dövr daha çox iki böyük sənətkarla xarakterizə olunur. Bunlardan biri Ağ Aşıq (Aşıq Allahverdi), digəri isə onun şəyirdi Aşıq Alıdır. Aşıq Alı Göyçə aşıq mühitinin, eləcə də Azərbaycan aşıq sənətinin tərəqqisində böyük rol oynamış, onun ifaçılıq və poeziya qollarına yeni nəfəs gətirmişdir. "Ağır Şərili", "Yüngül Şərili", "Keşişoğlu", "Süsənbəri", "Çoban bayatı" Ağ Aşığa aid edilirsə, "Aşıq təsnifi", "Qaytağı", "Qəhrəmanı", "El bayatı", "Şərili" Aşıq Alının yaratdığı havalar kimi vurğulanır[12].

Aşıq Ələsgərin Göyçə aşıq mühitinin yetirməsi olması bu mühitin ucalan xətlə yüksəlişinin göstəricisidir. Çünki o, təkcə yaratdığı yeni havacatlarla bu mühitin qaynarlığını təmin etməklə yanaşı, həm də klassik aşıq şeirinə yeni nəfəs gətirdi, təcnisin yeni növlərini yaratdı. "Zarıncı" ("Ələsgər Zarıncısı"), "Orta Şərili", "Şərili dübeytisi" havalarını Aşıq Ələsgər yaratmışdır[13]. Göründüyü kimi, Aşıq Ələsgər həm də böyük bəstəçi olmuş, aşıq havalarının təkmilləşməsində xüsusi əmək sərf etmişdir. Lokal sənət çevrəsində təşəkkül və təkamül prosesi keçirən aşıq sənəti bütün estetik göstəriciləri ilə yüksələn istiqamətdə inkişaf etmiş və Aşıq Ələsgər şəxsində özünün mükəmməllik sferasına daxil olmuşdur.

Aşıq Ələsgərin yaradıcı istedadı mühitin zənginləşməsinə, sənətin daha geniş müstəvidə qaynarlığına əsas oldu. Ustadın fitri istedadı mühiti rövnəqləndirdi və yaranan canlanma Aşıq Musa, Novrəs İman, Aşıq Nəcəf, Aşıq Əsəd və s. kimi onlarla sənətkarın inkişafı üçün qaynaq oldu. İfaçılıq və poeziya kontekstində mahiyyətə yönəlikli uğurların meydana çıxmasının başlanğıcını qoydu. Yeni-yeni şeirləri ilə həm öz ədəbi irslərini

---

[12] Həkimov M. Aşıq sənətinin poetikası / M.Həkimov. − Bakı: Səda, − 2004, − s. 524-590

[13] Yenə orada, − s. 527-530

zənginləşdirdilər, həm də klassik aşıq şeirimizin hüdudlarının genişlənməsinə nail oldular.

İkinci paraqrafın **"İfaçılıq ənənələrində sənətkarlıq məsələləri"** adlanan birinci bölməsində ifaçılıq xüsusiyyətləri mühit müstəvisində araşdırılır[14]. Bu kontekstdə müəyyən təhlillər aparılmış, müxtəlif səviyyələrdə mülahizələr yürüdülmüşdür. Bir çox müəlliflərin gördüyü mühüm işlər aşıq yaradıcılığının ifaçılıq ənənələri müstəvisində fundamental elmi baza yaratmışdır. Bu zənginlikdə ən mühüm problemlərdən birisi aşıq mühitlərinin ifaçılıq xüsusiyyətlərini geniş müstəvidə araşdırmaqdır. Regional xarakterin daxili dinamikasının işlənməsi ümumi prosesi, dastançılıq ənənəsini, söyləyici və repertuar aparıcılığını, mühitə xas olan saz havalarının harmofoniyasını aydınlaşdırmağa əsas olur.

Göyçə aşıq məktəbinin ifaçılıq ənənəsi qopuzun, sazın tarixi qədər qədimlərə bağlanır. Bu ənənənin formalaşıb inkişaf etməsində mühitin ustad sənətkarlarının əvəzsiz xidməti olmuşdur. Düzdür, bu ustadların ifaçılıq şəcərəsi günümüzə qədər tamlıqla gəlib çatmasa da, mövcud mühitin özündə yaşanan qəlibləşmiş modelin məzmunu bunun göstəricisidir.

Miskin Abdaldan Ağ Aşığa gələn yolun diferensasiyası etnik-mədəni sistemin spesifikasını müəyyənləşdirir. Ağ Aşığın yaratdığı "Ağır Şərili", "Yüngül Şərili", "Keşişoğlu", "Süsənbəri", "Çoban bayatı" havalar daha əhatəli, ifaçılıq ənənəsinin daha harmonik məzmununu ortaya qoyur. "Aşıq təsnifi", "Qaytağı", "Qəhrəmanı", "El bayatı", "Şərili" havalarının yaradıcısının Aşıq Alıya aid edilməsi bütünlükdə Göyçə ifaçılıq ənənəsinin hansı zənginliklə səciyyələnməsini keyfiyyət və kəmiyyət fakturasındakı dinamikanın təzahürü kimi görünür.

---

[14] Atayev F. Göyçə aşıq mühitinin ifaçılıq xüsusiyyətlərinin digər bölgələrin aşıq mühitləri ilə müqayisəli təhlili // − Bakı: Musiqi dünyası, − 2016. − № 4/69, − s. 16-19

Ustad sənətkarların el-el, oba-oba ifaçılıq ənənələrini yayması məclislər aparması çoxlu maraqlı faktlarla xarakterizə olunur. Göyçə mühitinin sənətkarlarının fəaliyyətində də bu mənzərə Ağ Aşığın, Aşıq Alının, Aşıq Ələsgərin və digərlərinin timsalında özünü göstərir. Çünki "Göyçə aşıqlarının səsi uzun zamanlar Bəsrə, Bağdad, Hələb, Tehran, Buxara üfüqlərində gəzib-dolaşmış, hər yerdə sonsuz hörmət və məhəbbətlə qarşılanmışdır"[15]. Havaların mahiyyətində gizlənən məzmun və ifadə layları, onun poetik sistemində müşahidə olunan təfərrüatlar arxaik yaddaşdan gələnləri, etnos ruhunun stixiyasını açıqlayır.

Göyçə aşıq məktəbinin ustad sənətkarlarının ifaçılıq sahəsində əldə etdiyi nailiyyətlər bütünlükdə Azərbaycan aşıq sənəti üçün mühüm dəyər kəsb etmişdir. Geniş mənada bu ifaçılıq bir sistem olaraq genetik məzmunu ilə türk xalqlarının mənəvi zənginliyinin ifadə üsulu kimi səciyyələnmişdir.

Musiqi, mətn, ifaçılıq baxımından Göyçə mühitində ustadların ənənə fasiləsizliyi bütün mərhələlərdə özünü göstərir və mövcud mənbələrdə də vurğulanır. Məsələn, Ağ Aşığın "Koroğlu", "Misri", "Bozuğu" havacatlarına ancaq Aşıq Alı qabaq oxuyarmış"[16]qənaəti mühitin sənət şəcərəsinin stixiyasını müəyyənləşdirir. Onun sənət anlayışında oturuşmuş dəyərlər özündən əvvəlkilərdən gələn kimi kodlaşır, şəyirdlərinə, eləcə də cavan aşıqlara, xüsusilə də ustad yanına getməyib öz-özünə çalıb-çağıran aşıqlara qarşı olan tələbkarlığı bunun bariz nümunəsi olmuşdur. Ustadlarla bağlı söylənən hekayətlərdə də bu özünü geniş şəkildə göstərir. Ağ Aşıq Aşıq Alı, Aşıq Ələsgər, Aşıq Musa, Aşıq Məhərrəm, Aşıq Nəcəf, Aşıq Qurban, Aşıq Əsəd, Aşıq Talıb, Aşıq Mehdi və s. sənətkarlar musiqi / ifaçılıq ənənəsində böyük bir sistemə bağlanır. Məsələn, Aşıq Alının saz

---

[15] Təhməzov M. (Elli). Ustad // − Bakı: Sovet Ermənistanı. – 1971, 13 noyabr. − № 138

[16] Ustad aşıqlar / tərt.ed. P.Əfəndiyev, M.Həkimov, N.Məmmədova. − Bakı: Gənclik, − 1983. − s. 51

havacatları sahəsindəki funksiyası, mahir ifaçılıq bacarığı, sənətini mənimsətmə sahəsində etdikləri, Aşıq Ələsgər, Aşıq Məhərrəm, Aşıq Qulu, Aşıq Məsim, Aşıq Meydan və s. kimi sənətkarlara ustadlıq etməsi mühitin inkişaf dinamikasını müəyyənləşdirir.

Aşıq Ələsgərin ədəbi irsi çox zəngindir, yəni böyük aşığın yaradıcılığında gəraylı, qoşma, müstəzad qoşma (ayaqlı qoşma), qoşayarpaq qoşma, təcnis, dodaqdəyməz təcnis, cığalı təcnis, müstəzad təcnis (ayaqlı təcnis), müxəmməs, divani, dodaqdəyməz divani, dildönməz (diltərpənməz), qəzəl, mərsiyə kimi şeir şəkillərindən istifadə edərək ən mükəmməl sənət inciləri yaratmışdır.

Mühitin ifaçılıq ənənəsində ustad-şəyird münasibətləri xüsusi bir məqamdır və sənətin məzmununu aydınlaşdırır. Məsələn, "Aşıq Ələsgərin Şəmkirli Aşıq Hüseynlə görüşü" dastan rəvayətində bunu aydın görmək olur[17].

Göyçə məktəbinin ifaçılıq ənənəsində ən mühüm problemlərdən biri saz-balaban qoşalığının işləklik mənzərəsidir. Çünki bu ifaçılıq ənənəsi ötəri olmamış, bir bütöv olaraq günümüzə qədər gəlib çatmış, indi də davam etməkdədir.

Göyçə ifaçılıq ənənələrinin Gəncəbasar aşıq mühitində uğurla davamı Quzey və Güney mühitləri arasında daha qaynarlıqla səciyyələnməsini şərtləndirir və buradakı peşəkar ifaçılıq özünün çiçəklənmə dövrünü yaşayır. Bütün bunlar son olaraq mühitin ifaçılıq ənənələrinin tarixi dinamikasını və genetik məzmununu müəyyənləşdirir.

İkinci paraqrafın **"Göyçə aşıq havaları və nota almanın ümumi səciyyəsi"** adlanan ikinci bölməsində vurğulanır ki, aşıq sənətinin ümumi problemləri sırasında aktuallıq kəsb edən məsələlərdən biri not yazıları ilə bağlıdır. Ümumiyyətlə, musiqi mədəniyyəti tarixinin tədqiqi işində qədim musiqi materiallarının ilkin mənbələrə uyğun şəkildə qeyd edilməsi özü ciddi çətinliklər

---

[17] Aşıq Ələsgər. Əsərləri, dastan-rəvayətləri, xatirələr / tərt.ed. İ.Ələsgər. – Bakı: Şərq-Qərb, – 1999. – s.378

yaradır. Aşıq musiqisinin not yazıları sahəsində atılan addımlar da bu sıradadır. Bunun ən başlıca səbəbi bu istiqamətdə nota alma prosesinin gecikməsi və sistemli aparılmamasından irəli gəlir. Digər səbəb isə aşıq havalarının nota salınmasında yaranan çətinliklərlə bağlıdır. Lakin son dövrlərdə Azərbaycan müsiqişünaslığında bu sahədə ciddi işlər görülmüş və maraqlı tədqiqatlar yaranmaqdadır.

Təxminən 418 saz havası nota alınmışdır ki, onun da bir hissəsi Göyçədə yaranmış aşıq havalarıdır. "Koroğlu" havalar silsiləsi[18], "Kərəmi" havalar silsiləsi"[19], "Baş divani", "Osmanlı divani", "Bəhri divani", "Baş müxəmməs", "Orta müxəmməs", "Dilqəmi", "Faxralı Dilqəm", "Dol hicran", "İbrahimi", "Sultanı" və s. havaların nota alınması son dövrlərdə əsaslı işlərin görülmə gərəkliyini aşkarlayır. Bunların bir hissəsi Göyçə aşıq mühitində yaranmış havalardır. Məsələn, "Ələsgər müxəmməsi", "Nəcəfi", "Duraxanı", "Qəhrəmanı", "Təxmis", "Göyçə gülü", "Göyçə gözəlləməsi", "Keşişoğlu", "Göyçənin yüngül Qaragözü", "Göyçənin ağır Qaragözü", "Süsənbəri" və s. Bunların ifaçılıq özünəməxsusluğunun poetik sistemini, texnoloji səciyyəsinin açılması isə sistemli tədqiqatların işidir. Ümumilikdə Azərbaycan aşıq mühitlərinə aid olan təxminən 182 havanın nota alınması özlüyündə milli ənənəyə bağlılığın göstəricisidir.

Digər istiqamətdə sənətin qədimliyini, xəlqiliyini yazılı şəkildə əks etdirir. O.Sarıvəlli vurğulayırdı ki, "xalqın şeir-sənət çeşmələri bitməz-tükənməzdir. Bu çeşmələrin qaynaqları çox dərindən – qalın torpaq laylarının, sal daşların, qayaların, müxtəlif mineral suxurların altından uzun müddət axmış, nəhayət dumduru, şəffaf çeşmələr şəklində yerin üzünə çıxmış bulaqları xatırladır... Qədim aşıqlarımız, el şairlərimiz, qüdrətli sənətkarlarımız məhz

---

[18] "Bozuğu Koroğlu", "Misri Koroğlu", "Cəngi Koroğlu", "Ərəbi Koroğlu", "Atlı Koroğlu", "Dəli Koroğlu" və s.

[19] "Qürbəti Kərəm", "Kərəm şikəstəsi", "Kərəm gözəlləməsi", "Sallama Kərəmi", "Yanıq Kərəmi", "Hicranı Kərəm" və s.

bu sulardan – öz rəngini, dadını, təravətini itirməmiş bu çeşmələrdən içmişlər. El yaradıcılığının tükənməz qaynaqları, şəffaf bulaqları xalqımızın geniş və hərarətli ürəyi olmuşdur”[20]. Aşıq havaları, aşıq şeir şəkilləri, bütünlükdə aşıq sənəti məhz xalqın ürəyinin başından qopmuş ecazkarlıq hadisəsidir.

Ənənəvi aşıq havalarının mühüm bir hissəsi etno-musiqişünaslar T.Məmmədov, İ.İmamverdiyev tərəfindən nota salınmışdır. Aşıq havalarının nota köçürülməsində N.Bağırov, A.O.Kərimli, İ.Köçərli, K.Dadaşzadə və s. musiqişünasların xidmətləri olmuşdur. Azərbaycan EA-nın Memarlıq və İncəsənət İnstitutunun “Xalq musiqisinin tarixi və nəzəriyyəsi” şöbəsinin hazırladığı “Azərbaycan xalq musiqisinin antologiyası”nın VII cildi Azərbaycan aşıq havalarından ibarətdir. Bütün bunlar bir sistem olaraq aşıq havalarının nota alınmasının ümumi səciyyəsini, görülən işlərin məzmun və problematikasını aşkarlayır.

“**Göyçə aşıq ifaçılığında muğam elementləri”** adlanan üçüncü bölmədə xüsusi olaraq vurğulanır ki, Azərbaycan milli musiqisi milli lad-intonasiya strukturuna tabe olan üç əsas sütunlar üzərində bərqərardır. Bunlar muğam, aşıq musiqisi, bəstəkar musiqisindən ibarətdirlər.

Göyçə aşıq mühiti müstəvisində aparılan təhlillər bir daha onu təsdiqləyir ki, hər iki sənət növünün ümumi xüsusiyyətlərindən biri də bu sənət növlərinin ustaddan şagirdə ciddi şəkildə tənzimlənən tədris sistemi əsasında ötürülməsidir. İlk dövrlərdə folklordan bəhrələnən bu sənət növləri inkişafının sonrakı mərhələlərində yüksək səviyyəyə çatmışdır. Nəticədə ustaddan dərs almış professional musiqiçilər olan aşıqlar, xanəndə və sazəndə peşələri (ixtisasları) yaranmışdır.

Sonrakı mərhələdə hər iki sənət növü mövcud olduğu mühit çərçivəsində, həmin mühitin bədii tələblərinə uyğun şəkildə

---

[20]. Sarıvəlli O. Qüdrətli şair, ustad sənətkar / O.Sarıvəlli. − Bakı: Avropa, − 2011. − s. 21

inkişaf etmişdir. Bu inkişaf populyarlıq qazanmış sənət növləri daxilində müstəqil məktəblərin yaranmasına rəvac vermişdir. Sənət daxilində məktəblərin çoxluğu sonucda həmin sənət növünün daha da inkişafına gətirib çıxartmışdır.

Bəzi zərbi muğamlarda aşıq havalarında olduğu kimi, bayatı və qoşmalardan istifadə edilir. Məlumdur ki, aşıqlar istifadə etdikləri aşıq şeir formalarını havacatın musiqi formasına uyğunlaşdırmaqdan ötrü şerin mətninə "aman-aman", "ölürəm", "balam" və s. kimi sözlərdən istifadə edirlər. Aşıqların leksikonunda işlənən "şeiri musiqiyə çəkmək" ifadəsi məhz bunu aydınlaşdırır. Zərbi muğamların ifası zamanı xanəndə də "ay aman", "dalay- dalay", "ay", "hey", "ha", "yar" və başqa bu kimi nəqarətvari sözlərdən istifadə edirlər.

Göyçə aşıq mühitinin ifa xüsusiyyətlərinin özünəməxsusluğunda, və mühitə məxsus havacatlarda təsnif vermə özü bir xətdir. Ümumiyyətlə, aşıq musiqisində müstəqil hava kimi istifadə edilən müxtəlif təsniflər vardır. Məsələn, Aşıq Alının yaratdığı "Aşıq təsnifi" (başqa adları "Qəmərcan", "Qaragöz", "Bu gecə") bunun klassik nümunəsidir. Eləcə də "Meydan təsnifi", "Təsnif ustadnamə", "Təsnif xətəngi", "Təkərləmə təsnif"lərin adlarını çəkmək olar[21]**.**Bütün bunlar bir daha onu deməyə əsas verir ki, muğam və aşıq sənətinin genetikasında ciddi yaddaş bağlantıları vardır.

Sonuncu bölmə "**Məktəb repertuarında forma genişləndirmə üsulları"** adlanır. Göyçə aşıq məktəbinin zənginliyində təhlil olunmalı məsələlərdən birisi forma genişləndirmə üsullarının özünəməxsusluğunun açılmasıdır. Çünki aşıq sənəti musiqi / mətn / ifaçılıq müstəvisində ciddi bir vəhdətlə xarakterizə olunur. Poeziya ilə musiqinin vəhdəti problemi həmişə mövcud olmuşdur.

---

[21] Həkimov M. Aşıq sənətinin poetikası / M.Həkimov. − Bakı: Səda, − 2004, − s. 423

Mühit kontekstində aparılan müşahidələr onu deməyə əsas verir ki, aşıq musiqisindəki variantlılığın bir qolu da havacatın formasına "Şahsevəni", "Paşa köçdü", "Keşişoğlu", "Süsənbəri", "Çoban bayatı", "Aşıq təsnifi", "Qaytağı", "Qəhrəmanı", "El bayatı", "Şərili", "Zarıncı", "Mina", "Nəcəfi", "Təxnis", "Nəcəf şərili", "Aşıq təsnifi" və s. edilən əlavələrdən (sirğa) ibarətdir. Bu cür əlavələr sözsüz ki, musiqi formasının genişlənməsinə gətirir. Forma genişlənməsi ilə müşayət olunan ifaçılıq priyomları (üsulları) ustad aşığın ustalıq səviyyəsindən xəbər verir. Təsadüfi deyil ki, bu zaman (uğurlu ifa etmək üçün) aşıq, ilk növbədə, havacatın semantikasina tam uyğun olaraq bayatıdan istifadə edir. Bir qayda olaraq əlavə ediləcək mətn havacatın III hissəsində istifadə edilir. Aşıq bu əlavəni havacatın daha zil pərdələrində təqdim edir. Bu da aşığın səs imkanlarını, ifaçılıq səviyyəsini əyani olaraq göstərir. Lakin bəzi hallarda bu cür əlavələr havacatın birinci və ikinci bəndlərinə də edilə bilər. Misal üçün, bəzən aşıqlar birinci bənddən sonra da bu üsuldan istifadə edirlər. İki aşıqın duet ifası zamanı bu cür üsuldan yararlanılır. Burada musiqinin forma qoruyucu missiyası görünür. Bir istiqamətdə yaranmış musiqi qəlibləri (havacatlar) özləri forma qoruyucu funksiyasını yerinə yetirmişdir.

**"Göyçə aşıq mühitində musiqi, mətn, ifa sənətkarlığı ənənəsi və onun tipoloji sistemi"** adlanan ikinci fəsildə problem dörd paraqrafda ümumiləşdirilir. İlk olaraq "***Çağdaş Göyçə aşıqlarının sənət ənənəsi"nə*** diqqət yetirilir. Məlum olduğu kimi, Göyşə aşıq mühiti geneoloji sistemi, etnomədəni məzmunu, tarixi tipoloji səciyyəsi olduqca zəngin bir faktura ilə xarakterizə olunur. Ozan-aşıq yaradıcılığının mahiyyətində dayananları, dinamik mənzərəsinin nələrlə səciyyələndiyini aydınlaşdırmaq üçün bütün müstəvilərdə fundamental təhlilləri gərəkli edir. Ustad sənətkarlar silsiləsi, onların xalqın mədəniyyətinə verdiyi töhfələr, günümüzə qədərki sənət şəcərəsi bütün mərhələlərdə orijinal, bir-birindən maraqlı ustadların sənətə əlavələri, milli yaddaşın texnoloji, mədəni sistemini zənginləşdirmə üsulları ilə bütövləşir. Mühit

müstəvisində Göyçə anlamını bir lay olaraq etnosun yaddaş tarixinə əlavə edir. Göyçə aşıqlığı timsalında möhtəşəm bir mədəniyyət və sənət təsəvvürünü formalaşdırmışdır.

Çağdaş Göyçə aşıq mühitinin qarşılaşdığı müasir mənzərə daha ciddi yanaşmaları aktuallaşdırır. Çünki XX əsr boyu yaşananlar son olaraq əsrin axırlarında bu mühiti coğrafi məkan olaraq yoxluqla üz-üzə qoydu. Sovetlər imperiyasının dağılması ilə bütünlükdə Qərbi Azərbaycan və onun zəngin mədəniyyət sənət layı da işğal olundu. Göyçə müqəddəsliyi, onun sənət nizamı, mədəniyyət fenomenliyi bütün məzmunu ilə yeni sferaya daxil oldu.

Göyçə aşıq mühitinin dinamik mənzərəsi coğrafi regionun işğalından sonra da eyni sistemin etnik-mədəni düşüncə formulası ilə nizamlanır. Coğrafi baxımdan sıradan çıxarılmış mədəni lay qədim türk-oğuz yurdunun zəbt olunmasından sonra yeni rəng və boyalarla, bir qədər ağrı, nisgil əlavə olunmuş şəkildə, yurd həsrəti yanğısı ilə öz müqəddəs yolundadır. Bu mühit bütün baş verənləri ilə sənət diferensasiyasında baş verənlər baxımından milli düşüncəyə, etnik-mədəni layın özgürlüyünə daha çox pənah gətirdi. Azərbaycanın ayrı-ayrı regionlarına dağılaraq orada etosun milli birlik təsəvvüründə olanların bir daha əvəzsizliyi təsəvvürünü aydınlaşdırdı və mövcud mühitlərin sənət ənənəsinə əlavə ovqat qatdı.

Musiqi / mətn / ifaçılıq baxımından çağdaş Göyçə mühiti Ağ Aşıqdan, Aşıq Alıdan, Aşıq Ələsgərdən qəlibləşmiş forma və üsullara, yaradıcılıq və ifaçılıq ənənəsinə sədaqət göstərir. Bu mühitin onurğa sütunu etnosun milli yaddaş institutlarının müəyyənləşdirdiyi prinsiplə nizamlanır. Aşıq şeirinin müxtəlif formalarının klassik nümunələrinin yaranması timsalında olanlar, dastançılıq ənənəsinin yaşamı, mühitə məxsus havaların aparıcılığı və s. bunları aydınlaşdırır. Ustad-şəyird ənənəsi timsalında baş verənlər bunun göstəricisidir. Bütün bunlar Göyçə aşıq mühitindəki sənət ənənəsinin yaşarlığını, coğrafi baxımdan

dağılmış Göyçənin ruhani baxımdan saz, sənət anlamında yaşarlığını, bir bütöv kimi nələrlə təmsil olunduğunu aydınlaşdırır.

İkinci fəslin ikinci paraqrafı ***"Ustad-şəyird münasibətləri"*** adlanır. Göyçə aşıq məktəbinin ifaçılıq xüsusiyyətlərinin aydınlaşmasında mühüm məsələlərdən birisi ustad-şəyird ənənəsidir[22]. Ümumiyyətlə, ustad-şəyird ənənəsi aşıq yaradıcılığının sənət dinamikasını, onun genetik məzmununu aydınlaşdıran və nizamlayan, ayaq üstə saxlayan bir sistemdir. Bu təkcə Göyçə aşıq mühiti və ya hər hansı mühit üçün xarakterik olmayıb bütünlükdə sənətin ümumi axarını müəyyənləşdirir.

Klassik aşıqların yaradıcılığı, dastan nümunələrinin verdiyi informasiya (məsələn, "Abbas və Gülgəz", "Xəstə Qasım və Mələksima", "Valeh və Zərnigar", "Aşıq Alının Türkiyə səfəri" və s.) bu müstəvidə zəngin faktura ilə səciyyələnir. Göyçə aşıq mühitinin sənət axarında da ustad-şəyird ənənəsi bir sistem olaraq aşıqlığın dunamikasını, inkişaf tendensiyasını aydınlaşdırır. Etnik-mədəni sistemin sənət təsəvvürü məhz bu düsturla, müəyyənləşmiş faktura ilə reallaşır.

Ustad-şəyird münasibətlərinin Göyçə aşıq mühitində müəyyənləşmiş sistemi sənət ənənəsində bütün dövrlərdə dinamik bir mənzərə ilə özünü göstərmiş, sinkretikliyin rəngarəng tərəfləri ilə aşılanma məqsədində olmuşdur. Çünki aşıq sənətinin mürəkkəbliyində musiqi / mətn / ifaçılıq və bununla yanaşı ərkan prinsipi başlıca olandır.

Azərbaycanın şifahi ənənəli professional musiqisi olan muğam sənətində də bu bir sistem olaraq qorunur. Hər iki sənət növünün ümumi xüsusiyyətlərindən biri də onların ustaddan şagirdə ciddi şəkildə tənzimlənən tədris sistemi əsasında 5-10 il ərzində ötürülməsidir. Bu fakt aşıq və muğam sənət növlərinin

---

[22] Атаев Ф. Традиции наставников и учеников азербайджанском ашугском искусстве // – Алматы: Поиск-Изденис. Серия гуманитарные наук. − Научный журнал Министерства Образования и Науки Республики Казахстан. – 2015. − № 1, − стр. 15-21

professional sənət növü olmasını şərtləndirir. İlk dövrlərdə folklordan bəhrələnən bu sənət növləri inkişafının sonrakı mərhələlərində yüksək səviyyəyə çatmışdır. Aşıq yaradıcılığında, eləcə də dastan və rəvayət nümunələrində ustaddan kamil dərs almamağın nəticələri ilə bağlı kifayət qədər faktlar var[23].

Göyçə aşıq məktəbinin ifaçılıq ənənələri timsalında ustad-şəyird münasibətləri ciddi faktura ilə xarakterizə olunur və aşıq ifaçılıq institutunun böyük tarixi ənənənlər əsasında nizamlandığını aydınlaşdırır. Burada əsas olan məqamlardan biri və bəlkə də birincisi ustad yanında şəyirdlik üçün ilkin olaraq bir sıra fərdi keyfiyyətlər nəzərə alınmalıdır. Məsələn, a) gözəl hafizə, b) şairlik təbinin olması, c) gözəl səs.

Ustad-şəyird ənənəsində deyişmə zamanı şagirddən saz havalarını kamil çalmaq, hazırcavablıq, aşıq şeir formalarında bədahətən söz demək kimi bacarıqlarını nümaiş etditilməsi tələb edilir. Deyişmədə ustadın imtahanından çıxmış şəyirdə bir aşıq kimi sərbəst fəaliyyət göstərmək hüququ verilir. Bütünlükdə bunlar ustad-şəyird ənənəsinin ciddi nizam və əsaslı təcrübə əsasında müəyyənləşdiyini, aşıqlığın bir institut olaraq nə qədər funksional mahiyyət kəsb etdiyini aydınlışdırır.

Üçüncü paraqraf **"İfaçılıq xüsusiyyətlərinin formalaşması və onun əhatə dairəsi"[24]** adlanır. Göyçə aşıq mühitinin faktura zənginliyində mühüm məsələlərdən biri ifaçılıq xüsusiyyətlərinin yayılma arealının aydınlaşmasıdır. Möhtəşəm sənət ənənələri ilə səciyyələnən aşıq yaradıcılığı bütün dövrlərdə keyfiyyət və kəmiyyət zənginlikləri ilə əsaslı mahiyyət kəsb etmiş, etnosun mənəvi dünyasının əxlaq və düşüncə modelinin qoruyucusu

---

[23] Atayev F. Muğam və aşıq sənətinə dair bəzi paralellər // – Bakı: Konservatoriya, – 2015. – № 2 (28), – s.5-10

[24] Атаев Ф. Вопросы влияния Гёйчинской ашугской среды на общеазербайджанскую ашугскую среду // – Алматы: Вестник Казахского Национального Педагогического Университета им. Абая, серия филологическая, – 2018. № 2(64), – с.116-120.

missiyasını yerinə yetirmişdir. Zamanın və siyasi sistemlərin təlatümləri onu daha da bütövləşdirmiş, sənət statusunda kutsallığı müəyyənləşdirmişdir. Musiqi / mətn / ifaçılıq müstəvisində ciddi uğurlarla səciyyələnmiş və sənət diferensasiyasında mükəmməllik düşüncəsi formalaşdırmışdır. İfaçılıq mühitinin bütün rəng və çalarları, dastan ənənəsi, aşıq şeirindəki baş verən zənginləşmə prosesi aşıqlığın dimamik mənzərəsini xarakterizə etmişdir. Ona görə Göyçə aşıq mühitində ifaçılıq xüsusiyyətləri geniş mahiyyətli mənəviyyat hadisəsi kimi daha ciddi və fundamental yanaşmaları, əsaslı paralelləri, sinxron və diaxron yanaşmaları zəruriləşdirir. Bütün məzmunu ilə mühit müstəvisində türk ellərinə bağlanır. Borçalı, Dərbənd, Şirvan, Qarabağ, Təbriz, Qaradağ, Urmiya, Zəncan, Dərələyəz, Ağbaba, Çıldır və s. mühitlərlə ümumi kontektdə kəsişən xətləri, bağlantıları müəyyənləşdirir.

Dərələyəz aşıq mühitinin inkişafında ən böyük xidmət Aşıq Cəlilə məxsusdur. Burada yeni havaların yaranması onun adı ilə bağlıdır. Deyilənə görə, bu ustad aşığın (o həm də tanınmış ifaçı aşıqdır) on iki havası olmuşdur. Aşığın məlum olan havaları bunlardır: “Baş Cəlili”, “Ayaq Cəlili”, “Qəhrəmanı”, “Dərələyəz gəraylısı”, “Qaytarma”, “Badamı”. Məlum olduğu kimi, Göyçə aşıq mühitindəki sənət şəcərəsindəki üçlük (Ağ Aşıq, Aşıq Alı, Aşıq Ələsgər) Dərələyəz aşıq mühitində Aşıq Paşa, Qul Mustafa, Aşıq Cəlil simasında təkrarlanır. Təəssüf ki, bu sənətkarların haqqında sənət bilgiləri elə də çoxluqla günümüzə gəlib çatmamışdır. Qul Mustafa öz saz-sözü ilə bu ellləri dolaşmış, müxtəlif əhvalat, hadisə olaraq yaddaşlara adını yazmışdır. XVII əsrin əvvəlində bu mühitdə yaşayıb yaradan Aşıq Paşa ilə bağlı əlyazma dövrümüzə qədər gəlib çatmışdır. Göyçə aşıq mühiti ifaçılıq ənənələrində bu mühitlə qaynayıb qarışmış və əsaslı sənət bağlantıları ilə zənginləşmişdir. Məsələn, Aşıq Cəlilin Aşıq Ələsgərlə sıx dostluq əlaqələri, əsaslı sənət bağlantıları təkcə iki böyük sənətkar səviyyəsində qalmayıb bütünlükdə mühit üçün örnək olmuşdur. Ağbaba-Cıldır aşıq mühitinin ustad sənətkarı

Aşıq Şenliklə olan səmimi münasibətlər, ustad kəlamları mühitin ümumi axarına, ifaçılıq ənənələrinə əlavə çalar qatmışdır.

Ağbaba aşıq mühiti bəstəçilik baxımından Göyçə aşıq mühiti ilə eyni müstəvidə dayanır. Mühitdə ifaçı aşıqların (Dədə Dərbədəri, Aşıq Qərib Hasan, Aşıq Məhərrəm, Aşıq Alışan, Aşıq Məhəmməd, Aşıq Nəsib, Aşıq İsgəndər Ağbabalı və b.) fəaliyyəti həm regional saz havalarının, həm də klassik saz havalarının yüksək ifaçılığının ənənəyə çevrilməsi, mühitin həm zənginliyini təmin etmiş, həm də onun Göyçə aşıq mühiti ilə əlaqələrini qüvvətləndirmişdir. İfaçılıqda fərqlər olsa da, burada ifaçılıq məharəti açıqca hiss olunur. Məsələn, Aşıq İsgəndər Ağbabalının "Yanıq Kərəmi", "Dilqəmi" kimi klassik havaları özünəməxsus ifa etməsi və s.

İfaçılıqda Borçalı aşıqları ilə Göyçə aşıqları arasında fərq olduğu kimi, davranışlarda da fərq və özünəməxsusluqlar vardır. Məsələn, Göyçə aşıqlarında oxu və çalğıya uyğun oynamaq və digər hərəkətlər olsa da, bu Borçalı mühitinə mənsub aşıqlarda hiss olunmur. Borçalı aşıqlarının ifaçılığında mühitin özünəməxsusluğunu əks etdirən havalar ("Mansırı", "Məmmədbağırı", "Sultanı" və b.) böyük məharət və ustalıqla çalınır. Klassik aşıq havalarına meyl bu zənginlikdə bir tərəfdir.

Göyçə aşıq mühitinin ifaçılıq ənənələri kontekstində aparılan paralellərdə Qarabağ aşıq mühiti də ciddi faktura ilə səciyyələnir. Burada da saz-balaban müştərəkliyi aparıcı xətdə dayanır. Çünki mühitdə bəstəçiliyin inkişafı da belə bir aparıcılığın yaranması üçün əsas olmuşdur. "Qarabağ dubeyti", "Qarabağ qaytağı", "Qarabağ qaytarması" bu mühitdə formalaşmışdır.

Özünəməxsusluq və eyni zamanda rəngarənglik, inkişaf dinamikasının ümumi sistemi baxımından Dərələyəz, İrəvan, Ağbaba, Qarabağ, Dərbənd mühitlərindən fərqli olaraq Şirvan mühiti daha geniş fakturalıdır. Göyçə aşıq mühiti ilə müxtəlif kontekstlərdə tipoloji təhlillər üçün əsaslı materiallar verə bilər. Oxu və çalğı üslubunda xanəndə tərzi qabarıq görüntülərlə əks

olunduğuna görə Şirvan aşıq mühitinin musiqi repertuarı ənənəvi aşıq repertuarından xeyli dərəcə fərqlidir. Belə ki, bu mühitdə aşıq tərzi ilə xanəndə tərzinin qovuşuğu olan "Pişrov" havaları (on ikiyə yaxın belə hava var), "Şikəstələr" (doqquz şikəstə havası mövcuddur), "Şəşəngilər" (sayı üçdür) müşahidə edilir ki, həmin havalar sırf bölgə səciyyəlidir[25].

Gəncəbasar aşıq mühiti musiqi / mətn / ifaçılıq baxımından Göyçə ilə daha bağlanır və saz-balaban müştərəkliyinə əsaslanır. İfa zamanı rəqsin qabarıqlığı xüsusilə diqqəti çəkir. Bu da ekstaz vəziyyətlə bağlı olub mühitin təkkə kökənli olduğunu təsdiqləyir. Gəncəbasar aşıq mühitində ifaçılıq ənənəsi daha zəngindir. Bir xətt Koroğluxanlıqla bağlıdırsa, digər istiqamət klassik ifaçılıq ənənəsində olanlardı.

Zəncan aşıq mühitində də ifaçılıq saz, balaban və qaval üçlüyü üzərində qurulub. Burada fərq ondadır ki, mərasimin uyğun yerində balabançı da, qavalçı da aşıqla bərabər oxuyurlar. Mühitdə balabançı ilə qavalçının oxumaları ənənə halını almışdır. Bütün bu tipoloji təhlillər Göyçə aşıq mühitinin ifaçılıq özünə-məxsusluğunun genetik sistemini, ənənə stixiyasını, Gəncəbasar, Borçalı, Dərbənd, Şirvan, Savə, Qarabağ, Təbriz, Anadolu, Qaradağ, Xorasan, Dərələyəz, Naxçıvan, Qaşqay, Zaqatala və s. mühitlərlə bağlantılarını və tarixi prosesin perspektivini aydınlaşdırmaq üçün ciddi material verir. "Aşıq Alının Türkiyə səfəri", "Çoban Məhəmmədin Qars səfəri" kimi sənət incilərinin yaranması Göyçə aşıq mühitinə mənsub aşıqların Anadoluya da səfərlər etməklərindən, onların Anadolu sənətkarları ilə qarşılıqlı münasibətlərindən xəbər verir. Bütün bunlar Göyçə aşıq mühitindəki ifaçılığın digər bölgələrdəki ifaçılıq ənənəsi ilə müqayisəsi nə qədər yaxınlıqları, klassikadan gələnləri qoruyub saxlasa da özünəməxsusluqları, tarixi prosesdə yeni əlavələrin gəlişini, sənət çalarlarını, müstəqil havaların meydana gəlməsini,

---

[25] Qasımlı M. Ozan-aşıq sənəti / M.Qasımlı. – Bakı: Uğur, – 2011. – s.214

dastan əlavələrini də ortaya qoyur. Son olaraq bütünlükdə mühitə məxsus olacaq ifaçılığı müəyyənləşdirir.

Sonuncu paraqraf **"Göyçə aşıq məktəbinin təsir əhatəsi"** adlanır. Göyçə aşıq mühitinin ifaçılıq xüsusiyyətlərinin regional, lokal etnik mədəni sistem kimi araşdırılması bir problem olaraq onun təsir əhatəsinin də müəyyənləşməsinə diqqət yetirməyi gərəkli edir. Çünki Dərələyəz, İrəvan, Borçalı, Ağbaba, Qarabağ, Şirvan, Anadolu, Təbriz, Qaradağ, Urmiya, Savə və s. aşıq mühitləri başlanğıc etibarilə eyni qaynağa bağlanır və tarixin ayrı-ayrı dönəmlərində nə qədər təsirlərə, özünəməxsusluq çalarlarına, əlavələrə gəlib çıxsalar da yenə bir lay olaraq əski yaddaşı, ilkinliyi mahiyyət olaraq özündə qoruyub saxlayır. Onun tarixi prosesdə qazandığı məzmun isə bütün müstəvilərdə yeniləşmələri, əlavələri aktuallaşdırır.

Mühitdəki yüksək ifaçılıq ənənələri, onun zəngin sənət nizamı, musiqidə yeniləşmənin fasiləsizliyi, dastan informasiyasının mütəhərrikliyi ciddi və həm də əsaslı faktura ilə xarakterizə olunur. İfaçılıq, aşıq şeiri sahələrində yüksəliş digər aşıq mühitlərinə öz müsbət təsirini göstərdi. Təbii ki, Göyçə aşıq mühiti öncə Qərb aşıq mühitlərinə (Ağbaba, Gümrü, İrəvan və Dərələyəz aşıq mühitlərinə, eləcə də Borçalı və Gəncəbasar mühitlərinə) əsaslı bağlantı və təsirlərlə səciyyələnir. Çünki oradakı mədəni mühitin ümumi mənzərəsi genetik baxımdan eyni xarakterli olub inkişafda oxşar elementlərlə zənginləşmişlər.

"**Nəticə**"də dissertasiya boyu gəlinən qənaətlər ümumiləşdirilir. Göyçə aşıq məktəbinin ifaçılıq xüsusiyyətlərinin sistemli şəkildə təhlili fundamental etnokultroloji, mənəvi-ideoloji bütövlüyün hadisəsi kimi zəngin faktura ilə səciyyələnir. Çünki mövcud zənginliyin enerji qaynağı öz daxili simmetriyası, informasiya fasiləsizliyi, dinamik xarakteri ilə əski yaddaşdan bu yana olanların hamısını özündə ehtiva etmək gücündədir.

Göyçə aşıq mühiti bir bütöv olaraq ozandan aşığa gəlişin ümumi məzmununu, spesifikasını, nələrlə təmsil olunmasının genetik sistemini, əvəzlənmələrin səbəb və mahiyyətini aydınlaş-

dırmaq üçün əsaslı material verir. Dədə Qorquddan Miskin Abdala, oradan da Aşıq Ələsgərə olan gəliş zənginləşmələrlə, yeni əlavələrin (ifa, havacat, aşıq şeiri, dastan mühiti və s.) dinamik məzmunu ilə fundamental təsəvvür formalaşdırır. Bütün bunlar Göyçə aşıq mühitinin ifaçılıq xüsusiyyətləri müstəvisində ciddi faktura ilə səciyyələndiyini, etno-mədəni sistemin əski yaddaşdan gələn sənət dəyərlərinə bağlılığını, Dədə Qorquddan üzü bəri olanların vahid bir məcrada nizamını və perspektivini müəyyənləşdirir.

**Dissertasiyanın əsas məzmunu aşağıdakı tezis və məqalələrdə öz əksini tapmışdır:**

1. Aşıq musiqisinin nota alınması xüsusiyyətləri // – Bakı: Elmi axtarışlar, – 2009. – №3, – s.100-105
2. Göyçə aşıq mühitinin təşəkkülündə Miskin Abdal mərhələsi // – Bakı: Musiqi dünyası, – 2011. – № 4/49, – s. 85-87
3. Göyçə aşıq mühitinin formalaşması (XVI-XVII əsrlər) // – Bakı: Dədə Qorqud, – 2012. – №4, – s. 81-87
4. Göyçə aşıq mühitinin formalaşması // – Bakı: "Aşıq sənətinin tarixi inkişaf yolları və Aşıq Şəmşir mərhələsi" mövzusunda beynəlxalq elmi konfransın materialları, – AMEA Folklor İnstitutu, "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi, – 2013. – s. 160-171
5. Aşıq musiqisində forma genişləndirmə üsulları // – Bakı: Mədəniyyət dünyası, – 2013. – № XXVI, – s. 154-158
6. Göyçədə aşıq ifaçılıq sənətinin formalaşması (ustad şəyird ənənələri) // – Bakı: Sivilizasiya, – 2014. – № 10, – s.43-48
7. Традиции наставников и учеников азербайджанском ашугском искусстве // − Алматы: Поиск-Изденис. Серия гуманитарные наук. − Научный журнал Министерства Образования и Науки Республики Казахстан. – 2015. − № 1, − стр. 15-21

8. Muğam və aşıq sənətinə dair bəzi paralellər // – Bakı: Konservatoriya, – 2015. – № 2 (28), – s.5-10

9. Göyçə aşıq mühitinin ifaçılıq xüsusiyyətlərinin digər bölgələrin aşıq mühitləri ilə müqayisəli təhlili // – Bakı: Musiqi dünyası, – 2016. – № 4/69, – s. 16-19

10. Исполнительские особенности Гейчинской ашугской среды в контексте обще азербайджанского ашугского искусства // – Пятигорск: Материалы IV международной научно-практической конференции «Научные исследования в сфере гуманитарных наук: открытия XXI века», – Пятигорский Государственный Лингвистический Университет, – Пятигорск 4-5 февраля 2016, – s. 20-27

11. Göyçə aşıq mühitində ifaçılıq məsələlərinə bir nəzər // – Bakı: Sivilizasiya, 2017. – cild 6, – № 3, – s. 132-135

12. Miskin Abdal və Göyçə aşıq mühiti // – Bakı: Qərb Universiteti, Elmi xəbərlər. Humanitar elmlər seriyası, – 2017. – № 4, – s. 36-40

13. Вопросы влияния Гёйчинской ашугской среды на общеазербайджанскую ашугскую среду // – Алматы: Вестник Казахского Национального Педагогического Университета им. Абая, серия филологическая, – 2018. – № 2(64), – с.116-120

14. Qərb aşıq mühitinin sənət qaynaqları, tarixi səciyyəsi və Göyçə aşıq məktəbi // – Bakı: Dil və ədəbiyyat, – 2019. – № 2 (11074), – s.247-249

15. Çağdaş Göyçə aşıqlarının sənət ənənəsi // – Bakü: III Uluslararası Dergi Karadeniz Sosyal Bilimler Sempozyumu (ibsess), – 19-21 kasım 2019. – s. 294-298

Dissertasiyanın müdafiəsi 02 noyabr 2021-ci il tarixində saat 16.00 Azərbaycan Milli Elmlər Akademiyasi Folklor İnstitutu nəzdində fəaliyyət göstərən ED 1.27 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1001, Bakı şəhəri, 8-ci Kiçik Qala döngəsi,31

Dissertasiya ilə AMEA Folklor İnstitutunun Kitabxanasında tanış olmaq mümkündür.

Dissertasiya və avtoreferatın elektron versiyaları Ali Attestasiya Komissiyasının (aak.gov.az) və AMEA Folklor İnstitutunun (folklor.az) rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 30.09 21-ci il tarixində zəruri ünvanlara göndərilmişdir.

**Çapa imzalanıb: 24.09.21**

**Kağızın formatı: 60*84/$^{1/16}$**

**Həcmi: 45490**

**Tiraj: 100 nüsxə**